doi.org/10.61764/lasr.2.2024.126-131

**UOT 3.33**

**Aytən Ağayeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim*
*Azərbaycan Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu, doktorant*
*e-mail: a.c.aghayeva@gmail.com*
*ORCID: 0000-0001-9675-4437*

# DAYANIQLI İQTİSADİ İNKİŞAFIN TƏMİNATINDA İNVESTİSİYA YATIRIMININ ALİ TƏHSİLİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINA TƏSİRİ

***Xülasə***

*Məqalədə iqtisadi inkişafın təşviqi vasitəsi kimi ali təhsilə investisiya qoyuluşunun vacibliyi vurğulanır. Yüksək ali təhsil səviyyəsinə malik olan əhali ölkənin iqtisadi inkişafının əsas determinantı mövqeyindən çıxış etməklə ölkədə ixtisisaslı işçi qüvvəsinin hazırlanmasında mühüm rola malikdir.*

***Məqsəd*** - ali təhsilə investisiya yatırımları etmək istiqamətində STEM sahələri, ətraf mühit və davamlılıq araşdırmaları, süni intellekt, enerji və bərpa olunan resurslar, Kibertəhlükəsizlik və İnformasiya Texnologiyaları, biznes və idarəetmə tədqiqatları və s. prioritet tədqiqat sahələrinin müəyyən edilməsi ali təhsilin əlçatanlığının, keyfiyyətinin yüksəldilməsi istiqamətində investisiyaların cəlb edilməsinin faydalılığını təhlil etməkdir.

***Metodologiya*** - tədqiqat işində dialektik, məntiqi yanaşma, stetistik təhlil üsullarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** - Ali təhsilə və sənayeyə investisiya qoyuluşu onların arasında əməkdaşlığın uğurlu olması üçün vacib amildir. Bu prosesdə hər iki tərəfin iştirak etməsi daha səmərəli nəticənin əldə olunmasını təmin edəcəkdir. Bununla şirkətlər və ali təhsil müəssisələri innovasiyalı inkişafa təkan verə biləcək bir ekosistem yarada bilərlər. Odur ki, tərəflərin bu tərəfdaşlığın əhəmiyyətini dərk etməsi və uğurlarına sərmayə qoyması üçün lazımi addımlar atması vacibdir.

***Açar sözlər:*** *ali təhsil, investisiya, iqtisadi inkişaf, ali təhsilin əlçatanlığı, ali təhsil və sənaye əməkdaşlığı*

## Giriş

Ali təhsil təkcə fərdlər üçün deyil, həm də cəmiyyət üçün uzunmüddətli fayda verən investisiyadır. Müxtəlif inkişaf etmiş ölkələrin təcrübəsi də göstərir ki ali təhsilə investisiya yatırımları ölkənin iqtisadi və dayanıqlı inkişafında mühüm rol oynayır. Belə ölkələrdən biri də Yaponiyadır. Bu ölkə məhdud resurslara malik olmasına baxmayaraq həm təhsil, həm də iqtisadi inkişaf səviyyəsinə görə digər ölkələr üçün nümunədir. Məqalədə uzunmüddətli iqtisadi artımın təşviq edilməsi məqsədilə ali təhsilə investisiya planı təsvir edilir. Bu planda ilkin olaraq investisiya yatırımı etmək üçün prioritet sahələrin müəyyən edilməsi əsas götürülür. Ali təhsilə mane olan faktorlardan biri də fərdlərin maliyyə imkanları və cografi məkandır. Bunun üçün ali təhsilin əlçatanlığının artırılması istiqamətində investisiya yatırımları etmək əhalinin bütün təbəqələri üçün ali təhsil almaq imkanlarını artıra bilər. Təbii ki, məsələ ali təhsilin əlçatanlığının artırılması ilə bitmir. Digər tərəfdən ali təhsilin keyfiyyətinin artırılması da vacib məsələlərdən hesab edilir. Yüksək keyfiyyətli ali təhsil üçün yatırılan investisiyaların mənfəət formasında geri

qayıtması təxminən 6 illik bir müddəti əhatə edə bilər. Bundan əlavə, universitet-sənaye əlaqələrinin inkişafına investisiyalar son nəticədə ixtisaslı işçilər hazırlamaq və xaricdən ixtisaslı işçilərin cəlb edilməsi kimi problemləri həll etmək üçün daha yaxşı imkanlara gətirib çıxaracaq.

**Ali təhsilin investisiya yatırımları üçün prioritet tədqiqat sahələrinin müəyyən edilməsi**

Ali təhsilə investisiya yatırımları fərdlərin şəxsi inkişafları ilə yanaşı, ölkənin də iqisadi və dayanıqlı inkişafı üçün əsaslı həll istiqamətlərindəndir.

Tədqiqat və innovasiyaların inkişafında ali təhsil müəssisələri mühüm rola malikdir. Ali təhsilə investisiyalar cəlb edilməmişdən əvvəl bu sahənin prioritetləri müəyən edilməlidir. Prioritet tədqiqat sahələrinin müəyyən edilməsi üçün vacib olan addımlardan biri də sosial problemlərin müəyyən edilməsidir. Bunlara iqlim dəyişikliyi, enerji təhlükəsizliyi, səhiyyə, yoxsulluq və bərabərsizlik kimi sosial problemlər aiddir. Problemlərin həll edilməsi və həlli yollarının tapılması davamlı tədqiqatlar tələb edir. Ali təhsil müəssisələri bu problemləri tədqiqat obyektinə çevirərsə mühüm nəticlərin əldə edilməsi mümkündür. Ali təhsilə qoyulan investisiyaların effektivliyini dəqiq qiymətləndirmək üçün həm fərdi, həm də ictimai nəticələri nəzərə almaq lazımdır [9, s.516].

İnsan kapitalı ölkənin iqtisadi inkişafının və böyüməsinin mühüm komponentidir. Təhsil və təlimə sərmayə qoyuluşu insan kapitalının formalaşdırılması və artırılması üçün vacibdir [6, s.50].

Ali təhsil müəssisələri rəqabət üstünlüklərinin və yeni biliklərin inkişaf etdirilməsində əsas rol oynayacaqları sahələrə diqqət yetirməlidirlər. Ali təhsilin prioritet tədqiqat sahələrinin bəzi nümunələrinə aşağıdakılar aiddir:

1. STEM sahələri
2. Ətraf Mühit
3. Ali təhsildə süni intellekt
4. Enerji və bərpa olunan resurslar
5. Kibertəhlükəsizlik və İnformasiya Texnologiyaları
6. Biznes və İdarəetmə Tədqiqatları və s.

**Ali təhsilə əlçatanlığın təmin olunması**

Cəmiyyətdə ali təhsil fərdləri şəxsi inkişafa malik olmaqla yanaşı həm də iqtisadi artımın və rifahın mühüm faktorudur. Bununla yanaşı fərdlər üçün ali təhsilə çıxış imkanları maliyyə məhdudiyyətləri, coğrafi məkan amili, sosial və mədəni imkanlarla məhdudlaşır. Bu təsiredici amillər nəzərə alınaraq fərdlər üçün ali təhsilə çıxış imkanları artırılmalıdır. Bunun üçün atılacaq addımlar sırasında ön sırada gələn məsələlərdən biri ali təhsilə çıxışın əlverişli olmasıdır. Bu problemlərdən ən qabarıq şəkildə özünü göstərən təhsil haqqları və digər ödənişlərdir. Əhalinin bütün təbəqələri qeyd etdiyimiz ödənişləri etmək imkanına malik deyillər. Bunun üçün universitetlər müəyyən qrantlar və maliyyə proqramları təklif etməklə müəyyən qədər problemi həll edə bilərlər. Bundan əlavə dövlət təhsil haqqlarının azaldılması üçün ali təhsil müəssisələrinə daha çox maliyyə ayıra bilər.

Ali təhsil müəssisələri sürətlə inkişaf edən qlobal iqtisadiyyatın tələblərinə cavab vermək üçün keyfiyyətli təhsili təmin etməklə bərabər bilik-bacarıqların formalaşdırılmasında getdikcə daha mühüm rol oynayır və iqtisadi inkişafın təkanverici amili təhsilin rolunun yüksək səviyyəsini əks etdirir.

Ali təhsilin əlçatanlığının artırılması yollarından biri də ali təhsilə çıxış imkanlarının genişləndirilməsidir. Bunun üçün distant təhsil ən optimal variantdır. Masir dövrdə onlayn kurslar və dərəcə proqramları daha aktual məsələyə çevrilir. Bunun başlıca səbəbi tələbələrə dünyanın istəlinən yerindən tədrisə qoşulmaq imkanlarının genişləndirilməsi ilə

doi.org/10.61764/lasr.2.2024.126-131

yanaşı universitetlərin daha geniş auditoriyalara müraciət etmək imkanlarının artması və ənənvi dərslərdə iştirak edə bilməyən tələbələr üçün geniş imkanların yaradılmasıdır.

Ali təhsilin əlçatanlığında digər məhduduiyyət isə coğrafi yerdir. Çünki ucqar kənd və ərazilərdə yaşayanların tədris prosesinə qoşulması çətindir. Bunun üçün əksər vaxtda tələbələr şəhərdə kirayə və ya tələbə yataqxanalarında qalmalı olurlar. Bu da öz növbəsində həm şəhərlərdə sıxlığın artmasına ekoloji cəhətdən çirklənməsinə eyni zamanda da tələbə üçün xərclərin artmasına səbəb olur. Bu problemin həlli üçün dövlət ucqar ərazilərdə yaşayan tələbələr üçün internətə çıxış və nəqliyyat imkanlarının yaxşılaşdırılması istiqamətində infrastruktur və texnologiyaya sərmayə qoya bilər. Texnologiyada əlçatanlığın təmin edilməsi təkcə hüquqi və mənəvi öhdəlik deyil, həm də bütün tələbələr üçün daha inklüziv və müxtəlif təlim mühitini təmin edir [3.s.384].

Bundan əlavə sosial mədəni maneələrdə ali təhsilin əlçatanlığına təsir etməsi qaçılmaz faktorlardandır. Bu daha çox özünü aztəminatlı ailələrdən olan fərdlərin ali təhsil almaq istədikləri zaman baş verə bilər. Bunun üçün universitetlər tələbələrə dəstək proqramı və mentorluq imkanları təklif edə bilərlər. Şəxsi inkişaf və iqtisadi rifahın artırılması üçün ali təhsilin əlçatanlığının təmin olunması vacib amildir.

**Ali təhsilin keyfiyyətinin artırılması**

Müasir dövrün tələbləri nəzərə alınarnaq ali təhsilin keyfiyyətinin yüksəldiləməsi üçün investisiyaların cəlb edilməsi iqtisadi və sosial inkişaf üçün mühüm əhəmiyyət kəsb edir. Ali təhsilin keyfiyyətinin yaxşılaşdırlmasına investisiya qoyuluşları ali təhsil müəssisələrinin nüfuzuna müsbət təsir göstərə bilər. Ali təhsilin keyfiyyətinin yaxşılaşdırılması daha çox tələbə cəlb etmək imkanlarını genişləndirməklə yanaşı gəlir axınlarına da müsbət təsir göstərir. Bundan əlavə bu amil ali təhsil müəssisələrinin reputasiyasına və keyfiyyətli təhsil o cümlədəndə ixtisaslı kadr hazırlamaq bacarıqlarına görə də digər maliyyə qurumlarını və investorları özünə cəlb etmək imkanına malikdir. Empirik tədqiqatlar göstərmişdir ki, təhsil xərcləri insan kapitalının məhsuldarlığı ilə yanaşı əmək məhsuldarlığını artırmaqla iqtisadi artıma müsbət təsir göstərir [5, s. 16].

Ali təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına investisiya qoyuluşları həm də ölkə iqtisadiyyatının ümumi rəqabət qabiliyyətinin artırılmasına imkanlar yaratmış olur. Keyfiyyətli ali təhsil nəticə etibarı ilə ixtisaslı işçi qüvvəsinin hazırlanması deməkdir. Bu isə ölkəyə xarici investisiyaların cəlb edilməsi ilə yanaşı xarici ölkələrdən tələbə axımnlarına səbəb ola bilən amildir. Bütün bunlar ölkənin iqtisadi inkişafına və gəlirlərinin artmasına təsir göstərir.

Ali təhsilin keyfiyyətinin yaxşılışdırılmasına sərmayə qoymağın bir neçə yolu vardır. Bunlar o cümlədən təhsil müəssisələri üçün maliyyələşmənin artırılması, təhsil işçiləri üçün peşəkar inkişaf imkanlarının təmin edilməsi, texnologiya və infrastruktura investisiya qoyuluşu və s. kimi istiqamətlərdir.

Ali təhsilin keyfiyyətinin yüksəldilməsi üçün investisiya yatırımları tələbələrin seçdikləri sahədə təcrübəli mütəxəsis olması kimi fərdi inkişafla yanaşı, həm də müəssisələrin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında əsas rol oynayır. Dövlət investisiyalarının effektivliyi təhsilin keyfiyyəti, tədqiqat infrastrukturu və sənaye, elm və hökumət arasında əməkdaşlıq səviyyəsi kimi müxtəlif amillərdən asılıdır [7, s.18].

Digər mühüm faktorlardan biri də şirkətlərin rəqabətə davamlılığı maliyyə ilə yanaşı ixtisaslı işçi qüvvəsindən də asılıdır. Ali təhsilə investisiya qoyuluşları sənayenin ehtiyaclarına cavab verə biləcək işçi qüvvəsinin hazırlanmasına təsir edir. Universitet sənaye əməkdaşlığı innovativ tədris metodlarının inkişafına səbəb ola bilər [4, s.14]. Buna görə şirkətlər ali təhsil müəssisələrinə investisya yatırımı etməsi təcrübəli işçi qüvvəsinin hazırlanmasında mühüm rol oynayır. Şirkətlər üçün investisya yatırımları müxtəlif

formalarda təqaüd təklif etmək, təlim proqramları, universitetlərdə təcrübələrə sponsurluq etmək və s. olur. Bununla şirkətlər istedadlı tələbələri cəlb edə və iş yerində saxlamaqla yanaşı onları uğur qazanmaq üçün lazımı bacarıqlarla təmin edə bilərlər.

Həmçinin, ali təhsil müəssisələri sənaye üçün faydalı olan yeni texnologiyalar tapmaq üçün tədqiqat və inkişafa sərmayə qoymalıdırlar. Bu məqsədlə universitetlər ən yaxşı tədqiqatçıları cəlb etməklə sənaye ilə əməkdaşlığı gücləndirə bilərlər.Əməkdaşlıq mühitləri tələbələr arasında fəal öyrənmə, tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirməklə ali təhsilin keyfiyyətinə müsbət təsir göstərə bilər [8, s.888].

Bu kimi tədbirlər vasitəsilə universitetlər şirkətlərə qlobal problemləri həll etmək və bazarda rəqabət qabiliyyətini artırmaq üçün bilik və təcrübə təqdim edirlər. Davamlı universitet-sənaye əlaqələri baxımından maliyyələşdirmə ədalətli olmalıdır. Bu, müxtəlif formalarda ola bilər: maliyyə dəstəyi, tədqiqat layihələrində əməkdaşlıq və birgə öyrənmə proqramlarının inkişafı və s. Bu kimi amillər bütövlükdə universitet sənaye əməkdaşlığına sərmayə qoymaqla böyümə və iqtisadi artımı stimullaşdıra biləcək qarşılıqlı faydalı tərəfdaşlıqlara gətirib çıxarır.

**Ali Təhsil İnvestisiyalarının Təsirinin Monitorinqi və Qiymətləndirilməsi**

Ali təhsil müəssisələrinə investisiya yatırımlarının iqtisadi inkişafa necə təkan verdiyi öyrnəmək üçün onun təsirini izləmək və qiymətləndirmək lazımdır. Burada təsir müxtəlif şəkillərdə artan məhsuldarlıq, sosial hərəkətlilik, sağlamlıq kimi göstəricilər ola bilər. Ümumiyyətlə, “Edtech sərmayəsi”(ingilis dilində education - "təhsil" və technology - "texnologiya") investorların təhsilin gələcəyini formalaşdırmağa çalışdıqları "gələcək" formasıdır [2, s.237].

Ali təhsilə yatırılan investisiyaların təsirinin monitorinqi və qiymətləndirilməsi əsasən tələbə karyerası perspektivlərinə baxmaqla, tədqiqat və innovasiyaların iqtisadiyyata təsirini ölçmək və maliyyə yardımı proqramlarının effektivliyini qiymətləndirmək yolu ilə həyata keçirilə bilər. Digər tərəfdən yüksək keyfiyyətli ali təhsil üçün tədrisin keyfiyyətinə nəzarət həlledici rol oynayır. Bu isə ali təhsil müəssisələrinə təkmilləşdirməli olduqları sahələri müəyyən etməyə, onların tədris və öyrənmə keyfiyyətini qiymətləndirməyə, tələbələrin və əmək bazarının dəyişən ehtiyaclarına cavab vermək potensialını yaradır [1, s.272].

Ali təhsildə bu tip qiymətləndirmənin aparılmasının çətinlikləri onun nəticlərinin uzunmüddətli xarakterdə olması ilə yanaşı, nəticələrin mürəkkəbliyi, dərhal müşahidə və ölçmək kimi imkankanlara malik olmamasıdır. Bunun üçün dövlət mütəmadi olaraq ali təhsil müəssisələri ilə işləməlidir.

**Nəticə**

Ali təhsil iqtisadi inkişafı dəstəkliyərək insanların təcrübə və bacarıqlarının artırılmasına imkan yaradan amildir. Uzunmüddətli iqtisadi inkişaf üçün ali təhsilə investisiya qouyuluşları ənənəvi olaraq təsdiqlənmiş metoddur. Ali təhsildə STEM sahələri, Ətraf mühit, süni intellekt, enerji və bərpa olunan resurslar, kibertəhlükəsizlik və informasiya texnologiyaları, biznes və idarəetmə tədqiqatları və s. kimi prioritet sahələrə investisiya yatırımı ölkə iqtisadiyyatının inkişafını təşviq edir. Bundan əlavə ali təhsilin əlçatanlığının artırılması üçün investisiya yatırımları əhalinin bütün təbəqələri üçün o cümlədən coğrafi məkan fərqlərinin aradan qaldırılması istər təhsil istərəsə də sosial yanamaşma prizmasından müsbət təsirlər yaradır.

Bundan əlavə ali təhsilin keyfiyyətinin artırılması istiqamətində investisiya yatırılmarı ölkənin universitetlərinin beynəlxalq səviyyədə tanınmasına o cümlədən ölkəyə

xarici tələbələrin cəlb edilməsini vasitəsilə gəlirlilik imkanlarnı artıra bilər. Bu amil ölkədə bacarıqlı işçi qüvvəsinin yaratmaqla ölkə iqtisadiyyatının rəqabətqabililiyətliyinin artırılmasına gətirib çıxarır.

## ƏDƏBİYYAT


1. Balalaieva O., Shynkaruk O., Pavlyuk B., Bidyuk D., Yashchuk O. The role of education quality monitoring in ensuring quality higher education. Amazonia Investiga, 2023, 12(65), pp. 265-275.
2. Ben W., Komljenovic J. Investing in imagined digital futures: the technofinancial 'futuring' of edtech investors in higher education. Critical Studies in Education. Taylor & Francis Group, 2023, 64(3), pp.234–249
3. José L.F., Ángel L.G. Including accessibility in higher education curricula for ICT. Elsevıer. Procedia Computer Science, 2012, pp. 382-390
4. Jun D. A New Model of Talent Cultivation through University-Industry Co-operation: Innovation of Teaching Methods for Digital Media and Film Majors. Journal of Social Science Studies, 2024, 11(1), pp.11-21
5. Karaçor Z., Güvenek B., Ekinci E., Konya S. Panel estimation for the relationship between education expenditure and economic growth for OECD Countries. Forum Scientiae Oeconomia, 2018, 6(2), pp.7-20
6. Khodjamuratova G.Y. The economics of education: İnvesting in human capital. International Journal Of Innovations In Engineering Research And Technology, 2024, 11(1), pp.49-51
7. Kingsley O., Julius T., Jose E., Michael J. F., Hosseini S. Impact of global government investment on education and research development: A comparative analysis and demystifying the science, technology, innovation, and education conundrum. Global Transitions, 2022, 4, pp.11-27
8. Rodriguez D., Silvia A. Collaborative environments, a way to improve quality in Higher Education. Procedia - Social and Behavioral Sciences, 2012, 46, pp.875-884
9. Цыпин А. П., Фирсова А. А. Подходы к оценке эффективности инвестиций в высшее образование. Перспективы Науки и Образования, 2021, 5(53), pp.512-529


**Aytan Aghayeva**

## THE EFFECT OF INVESTMENT IN PROVIDING SUSTAINABLE ECONOMIC DEVELOPMENT ON INCREASING THE ECONOMIC EFFICIENCY OF HIGHER EDUCATION


***Summary***

*The article emphasizes the importance of investing in higher education as a means of promoting economic development. The population with a high level of higher education plays an important role in the preparation of the qualified labor force in the country, acting as the main determinant of the country's economic development.*

***The goal*** is to invest in higher education in STEM fields, environmental and sustainability studies, artificial intelligence, energy and renewable resources, Cybersecurity and Information Technology, business and management studies, etc. identification of priority research areas is to analyze the usefulness of attracting investments in the direction of increasing the accessibility and quality of higher education.

***Methodology*** - dialectical, logical approach, statistical analysis methods were used in the research work.

***Research findings*** - Investing in higher education and industry is an important factor for successful cooperation between them. Participation of both parties in this process will ensure a more efficient result. In this way, companies and higher education institutions can create an

ecosystem that can stimulate innovative development. Therefore, it is important that the parties understand the importance of this partnership and take the necessary steps to invest in its success.

***Keywords:*** *higher education, investment, economic development, access to higher education, higher education and industrial cooperation*

**Айтан Агаева**

**ВЛИЯНИЕ ИНВЕСТИЦИЙ В ОБЕСПЕЧЕНИЕ УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ НА ПОВЫШЕНИЕ ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ ВЫСШЕГО ОБРАЗОВАНИЯ**

***Резюме***

*В статье подчеркивается важность инвестиций в высшее образование как средства содействия экономическому развитию. Население с высоким уровнем высшего образования играет важную роль в подготовке квалифицированной рабочей силы в стране, выступая основным определяющим фактором экономического развития страны.*

***Цель*** состоит в том, чтобы инвестировать в высшее образование в областях STEM, исследованиях окружающей среды и устойчивого развития, искусственном интеллекте, энергетике и возобновляемых ресурсах, кибербезопасности и информационных технологиях, исследованиях в области бизнеса и управления и т. д. определение приоритетных направлений исследований заключается в анализе целесообразности привлечения инвестиций в направлении повышения доступности и качества высшего образования.

***Методология***–в исследовательской работе использованы диалектический, логический подход, методы статистического анализа

***Результаты исследования*** - инвестиции в высшее образование и промышленность являются важным фактором успешного сотрудничества между ними. Участие обеих сторон в этом процессе обеспечит более эффективный результат. Таким образом, компании и высшие учебные заведения могут создать экосистему, способную стимулировать инновационное развитие. Поэтому важно, чтобы стороны поняли важность этого партнерства и предприняли необходимые шаги для инвестирования в его успех.

***Ключевые слова:*** *высшее образование, инвестиции, экономическое развитие, доступ к высшему образованию, высшее образование и производственная кооперация*